| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL106 Müasir Azərbaycan dili -3<br>3 kredit, 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilnin payız semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Elza İsmayılova | |
| | **E-mail:** | elzaxanim@yahoo.com | |
| | **Telefon:** | 050 460 34 71 | |
| | **Mühazirə otağı/Cədvəl** | IV, VI günlər | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | AZLL108 | | |
| **Tədris dili** | **Azərbaycan dili** | | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat:**<br>Hüseynzadə M. (2007). Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Şərq-Qərb.<br>Xəlilov B. (2000). Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı.<br>Xəlilov B. (2016). Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı.<br>Kazımov Q. (2010). Müasir Azərbaycan dili (Morfologiya). Bakı: Elm və təhsil.<br>Müasir Azərbaycan dili. Morfologiya. II cild. (1980). Bakı.<br>Seyidov Y. (2011). Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı.<br><br>**Əlavə ədəbiyyat:**<br>Aslanov A. (1985). Müasir Azərbaycan dilində qrammatik kateqoriyalar (mənsubiyyət, inkarlıq, kəmiyyət kateqoriyaları). Bakı.<br>Balıyev H. (2003). Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı.<br>Cəlilov F. (1988). Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif.<br>Əlizadə Z. (1965). Müasir Azərbaycan dilində modal sözlər. Bakı: Maarif.<br>Əsgər İ. (2015). Azərbaycan dilində məhsuldarlıq yaradan qeyri-məhsuldar şəkilçilər. Bakı: Elm və təhsil.<br>Hacıyev K. (1999). Azərbaycan dilində xüsusi nitq hissələri. Bakı.<br>Hümmətova R. (2019). Ana dili. II hissə. Dərs vəsaiti. Bakı.<br>Mirzəyev H. (1986). Azərbaycan dilində feil. Bakı: Maarif. | | |
| **Tədris metodları** | **Mühazirə** | + | |
| | **Qrup müzakirəsi** | + | |
| | **Praktiki tapşırıqlar** | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Fəallıq və davamiyyət** | | **10 (5+5)** |
| | **Yoxlama yazı işi (İmla)** | | **10** |
| | **Quiz** | | **10** |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Bu kursda qrammatika haqqında məlumat verilir, qrammatikanın dilçiliyin digər şöbələri ilə əlaqəsindən, qrammatikanın morfologiya şöbəsindən və morfologiyanın növlərindən, morfem anlayışından, kök və şəkilçi morfemdən, əsasdan, şəkilçilərin növlərindən, söz kökünə şəkilçi qoşulduqda baş verən morfonoloji hallardan bəhs olunur. Nitq hissələrinin təsnifi ilə bağlı mövcud fikirlər saf-çürük edilir, o cümlədən ümumi qrammatik kateqoriyalar, əsas, köməkçi, xüsusi, qeyri-müəyyn nitq hissələri geniş şərh edilir. | | |
| | Kursun əsas məqsədi müasir Azərbaycan ədəbi dilinin qrammatik quruluşunu, morfoloji strukturunu öyrənmək, əsas və köməkçi nitq hissələrinin funksional xüsusiyyətlərini müəyyənləşdirmək, onların leksik və qrammatik mənasını | | |

<table>
<tr><td>Kursun məqsədləri</td><td colspan="4">aydınlaşdırmaq, eyni zamanda əsas nitq hissələri ilə bağlı ədəbi dilimizdə gedən derivatoloji prosesləri öyrənməkdən ibarətdir.<br>Bundan başqa, yüksək nitq mədəniyyətinə sahib olmaq üçün tələbələrə fənnə dair zəruri bilik, bacarıq və vərdişləri şüurlu olaraq mənimsətmək və “Azərbaycan dili” fənnini bir elm sahəsi kimi öyrətmək, sevdirmək fənnin məqsədlərindən biri kimi xüsusi aktuallığa malikdir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="4">Kursun sonunda tələbələr:<br>1. Azərbaycan dili fənninin məzmununu, nitq hissələrinin təsnifi meyarlarını dərindən biləcəklər.<br>2. Əsas və köməkçi nitq hissələrindən məqsədyönlü istifadə qaydalarını şüurlu olaraq dərk edəcəklər.<br>3. Tam və natamam mənalı sözləri fərqləndirməyi və onların funksional xüsusiyyətlərini izah edəcəklər.<br>4. Sözlərin quruluşca növlərini fərqləndirəcəklər.<br>5. Sözün leksik-semantik mənasına daha dərindən bələd olacaq, leksikonunu zənginləşdirəcəklər.<br>6. Əsas nitq hissələrini tərkibinə görə təhlil etməyi bacaracaqlar.<br>7. Müxtəlif nitq hissələrinin cümlə üzvü funksiyasında iştirakını müəyyən edəcəklər.</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="4">Fəallıq:<br>Fəallığa görə bal tələbənin müzakirələrdə iştirakına, semetsr boyu həftəlik dərs proqramına hazırlaşmalarına, mövzularla əlaqəli verilən tapşırıqları yerinə yetirməsinə, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə verilir.<br>Davamiyyət:<br>1. Semestr ərzində tələbənin dərsdə iştirakına görə bal verilir. Tələbə fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal yazılır.<br>2. Davamiyyətə ayrılmış baldan üzrsüz buraxılan bir dərs üçün 1 (bir) bal çıxılır.<br>3. Semestr ərzində fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.<br>İmtahan haqqında:<br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və Final imtahanlarında suallar çalışmalar şəklində olacaqdır.</td></tr>
<tr><td colspan="5">Cədvəl (dəyişdirilə bilər)</td></tr>
<tr><td rowspan="2">Həftə</td><td colspan="2">Tarix (planlaşdırılmış)</td><td rowspan="2">Fənnin mövzuları</td><td rowspan="2">Dərslik /Tapşırıqlar</td></tr>
<tr><td>A</td><td>B, C</td></tr>
<tr><td>1.</td><td colspan="2">19.09.24<br>21.09.24</td><td>Dilin qrammatik quruluşu. Qrammatika və onun növləri<br>Morfologiya haqqında ümumi məlumat. Morfologiyanın növləri. Kök və şəkilçilər</td><td>M.Hüseynzadə. Müasir Azərbaycan dili (Morfologiya) (bundan sonra – Hüseynzadə), s. 5-16<br>B.Xəlilov. Müasir Azərbaycan dili morfologiya I hissə, (bundan sonra – Xəlilov), s. 3-32; 33-137<br>Çalışmalar üzərində iş</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| 2. | 26. 09.24<br>28. 09.24 | Nitq hissələri, təsnifi. Əsas nitq hissələri. İsim. Quruluşca növləri | Xəlilov, I, 138-148; II, s. 3-60; s. 36-58<br>Hüseynzadə, s. 19-26<br>Çalışmalar üzərində iş |
| 3. | 03.10.24<br>05.10.24 | Ümumi qrammatik kateqoriyalar. İsimlərdə hal, kəmiyyət, mənsubiyyət və xəbərlik kateqoriyaları | Xəlilov, I, s. 152-250<br>Hüseynzadə, s. 37-58<br>Bədii ədəbiyyatdan nümunələr<br>Ərizə yazmaq |
| 4. | 10.10.24<br>12.10.24 | Müasir Azərbaycan dilində sifət. Quruluşca növləri Sifətin dərəcələri | Xəlilov, II, s. 107-115; 117-130;131-134<br>Hüseynzadə, s. 64- 78 |
| 5. | 17.10.24<br>19.10.24 | Say haqqında ümumi məlumat. Mənaca növləri Sakramental saylar. Sayların orfoqrafiyası<br>Əvəzlik, mənaca növləri | Xəlilov, II, s. 136-162; 163-190<br>Hüseynzadə, s. 82-117<br>Tərcümeyi-hal yazmaq |
| 6. | 24.10.24<br>26.10.24 | Feil, quruluşu. Feilə məxsus spesifik qrammatik kateqoriyalar<br>Feilin qrammatik məna növləri | Xəlilov, II, s. 191-206; 207-218<br>Hüseynzadə, s. 118-154<br>Bədii ədəbiyyatdan nümunələr |
| 7. | 31.10.24<br>02.11.24 | Feilin təsriflənən formaları: əmr, xəbər, vacib, lazım, arzu, şərt<br>Feilin təsriflənməyən formaları. Məsdər. Feili sifət. Feili bağlama | Xəlilov, II, s. 219-236; 232-235; 236-249<br>Hüseynzadə, s. 162-190<br>Bədii ədəbiyyatdan nümunələr |
| 8. | 07.11.24<br>09.11.24 | **Aralıq imtahanı**<br>**Azərbaycan Resublikasının Dövlət Bayrağı Günü** | |
| 9. | 14.11.24<br>16.11.24 | Zərf haqqında məlumat. Zərflərin quruluşca və mənaca növləri | Xəlilov, II, s. 277-287<br>Hüseynzadə, s. 200-215<br>Bədii ədəbiyyatdan nümunələr |
| 10. | 21.11.24<br>23.11.24 | Köməkçi nitq hissələri. Qoşma, məna növləri və qoşulduğu hallar. Qoşmaların orfoqrafiyası | Xəlilov, II, s. 289-290; 291-297<br>Hüseynzadə, s.218-220<br>Çalışmalar üzərində iş |
| 11. | 28.11.24<br>30.11.24 | Bağlayıcı, təsnifi. Sintaktik vəzifəsinə və məna-sına görə növləri. Bağlayıcıların orforqrafiyası və onlarda durğu işarələri<br>**Sınaq imtahanı (Quiz)** | Xəlilov, II, s. 289-303<br>Hüseynzadə, s. 228-232<br>Çalışmalar üzərində iş |
| 12. | 05.12.24<br>05.12.24 | Ədat. Quruluşca və mənaca növləri. Ədatların or- foqrafiyası<br>**Yoxlama yazı işi (İmla)** | Xəlilov, II, s. 308-310<br>Hüseynzadə, s.245-249<br>Bədii ədəbiyyatdan nümunələr |
| 13. | 12.12.24<br>14.12.24 | Modal sözlər. Məna növləri və quruluşu<br>Modal sözlərin işlənmə məqamları, durğu işarələri | Xəlilov, II, s. 331-334<br>Hüseynzadə, s.264-266<br>Bədii ədəbiyyatdan nümunələr |
| 14. | 19.12.24<br>21.12.24 | Xüsusi nitq hissələri, təsnifi. Nida, məna və vəzi- fələrinə görə növləri və quruluşu.<br>Nidalarda durğu işarələri | Xəlilov, II, s. 314-324<br>Hüseynzadə, s. 273-274<br>Çalışmalar üzərində iş |
| 15. | 26.12.24<br>28.12.24 | Təqlidi sözlər. Məna qrupları və quruluşu<br>Qeyri-müəyyən nitq hissələri (imperativ sözlər, uşaq sözləri, ritmik sözlər) | Xəlilov, II, s. 336-346<br>Hüseynzadə, s. 268<br>Çalışmalar üzərində iş |
| | | **Final imtahan** | |